Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirən yazıçı
# Qəşəm İsabəyli

Qəşəm İsabəylinin 75 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

Tərtibçi: Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirən yazıçı -** Qəşəm İsabəylinin 75 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

Uşaqlar üçün yazılan poema heç də asanlıqla ərsəyə gəlmir. Çünki, uşaq psixologiyasını dərindən bilməyən yazıçı və şair belə bir əsər yaratmaq şansında ola bilməz. Ona görə də maraqlı əsər yaratmaq üçün hökmən uşaqların düşüncələrini və zövqlərini nəzərə almaq lazımdır. Qəşəm İsabəyli uşaq ədəbiyyatımızın son illərində öz mövzu dairəsini xeyli genişləndirmiş, sənətkarlıq baxımından daha kamil əsərlərlə zənginləşdirilmişdir. Yazıçının uğurlu təşəbbüsü bu mənada sevindiricidir. Qəşəm İsabəyli müharibə mövzusunda, uşaq əsərləri yaratmaq sahəsində, müntəzəm araşdırmalar aparan sənətkarlarımızdandır. Yazıçı ömrünü uşaq ədəbiyyatına həsr etmişdir. Son illər qələmə aldığı uşaq şeirləri, hekayə və nağılları, "İiiaaa", "Cin" və digər əsərləri uşaq ədəbiyyatına yeni bədii üslubun gəlişindən xəbər verir. O, uşaq dünyasına dərindən bələd olan, bədii forma və məzmun axtarışları və orijinal bədii üslubu ilə seçilən, Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirən, rəngarəng yaradıcılığa malik olan şairdir. XX əsrin altmışıncı illərinin sonlarından şeir yazmağa başlayan şairin "Balaca-bapbalaca" adlı ilk kitabı 1982-ci ildə işıq üzü görüb. Onun "Nənəm təkdi", "Əkil-Bəkil", "Ay külək, nə əsirsən", "Leyləyin intiqamı" və digər şeir kitabları dəyərli nəşrlər kimi diqqət çəkib. Şair müxtəlif xarakterə malik uşaqların özlərinə xas olan hərəkətini təsvir etmək üçün olduqca oynaq misralarına yumşaq yumor qatır, nəticədə bu yığcam şeirlərdə balaca oxucular sanki özlərini dupduru aynada görürlər. "Anam çörək yapanda", "Şəhərli oğlan", "Nənəmgilə gəlmişəm", "Ay nənəli", "Qonaq" və digər şeirlərdə kövrək uşaq xarakter və psixologiyasını görmək mümkündür. Qəşəm İsabəyli özünü uşaq şairi kimi tanıtsa da, öz hekayələri ilə də uşaq və gəncləri sevindirib.

"Samur at minir", "Bir qarıyla bir qoca, Dingilim-fış oynar gecə", "Bir qəlbin məhəbbət etirafları" kitablarına onun düşündürücü, tərbiyəvi əhəmiyyətli hekayələri daxil edilib. Q.İsabəylinin əsərlərinin Azərbaycan sərhədlərini aşaraq dünya xalqlarının uşaqlarına da təqdim olunması ən uğurlu nəticələrdən sayıla bilər. Dünya Uşaq və Gənclər Ədəbiyyatı Şurasının Londonda çap olunan nüfuzlu "Bookbird" jurnalında "Baba, sabahın xeyir!" hekayəsi ingilis dilində çap edilib, tələbkar oxucuların marağına səbəb olub. Şairin uşaq şeirləri öz məzmun yükünə görə ədəbi ictimaiyyətin diqqətini çəkib, nəticədə müəllif "Qızıl kəlmə" (2015) müsabiqəsində mükafat qazanıb. "Keçinin azadlıq nağılı" hekayəsi ilə A.Lindqren adına müsabiqədə nominant olub.

Yaradıcılıq yollarında heç vaxt arxayınlaşmayan, öz şirin üslubu, rəvan dili ilə uşaqların mənəvi dünyasını fəth edən Qəşəm İsabəyli yeni nəslin tərbiyəsində, mənən formalaşmasında əvəzsiz rol oynayır. Bu yolda ona yeni uğurlar arzulayırıq.

## Həyat və yaradıcılığı

Qəşəm İsabəyli 1948-ci il avqustun 14-də Azərbaycanın Kürdəmir rayonundakı Xəlsə kəndində ziyalı ailədə anadan olmuşdur. İbtidai təhsilini Xəlsə kəndində almışdır. 11 illik məktəbi qonşu Axtaçı kəndində bitirmişdir. ADU-nun Geoloji-coğrafiya fakültəsinin Coğrafiya şöbəsini bitirmişdir. Qəşəm İsabəyli Kürdəmir rayonunun Axtaçı və Beyi kənd məktəblərində müəllim işləmişdir. Bir müddət Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində ştatdankənar müxbir olmuşdur. Uşaqların keçirdiyi gerçək həyati hissləri, kövrək düşüncələrini təbii boyalarla və şirin üslubla qələmə alan Q.İsabəyli özünü bir uşaq nasiri kimi də təsdiqləyib. C.Cabbarlı adına "Azərbaycanfilm"

kinostudiyasında sənədli filmlər birliyində inzibatçi, sifariş filmləri redaktoru vəzifələrində çalışmışdır. "Yazıçı" nəşriyyatında klassik ədəbiyyat və folklor şöbəsində redaktor olmuşdur. "İşıq" nəşriyyatında sifariş ədəbiyyatı redaksiyasının müdiri işləmişdir. Azərbaycan Respublika Mədəniyyət Nazirliyinin "Şur" nəşriyyatında direktor vəzifəsində çalışmışdır  Bədii-ensiklopedik "Cik-cik" uşaq qəzetinin təsisçisi, naşiri və baş redaktorudur. Həmçinin "Şirvannəşr" nəşriyyatının təsisçisi və naşiridir. 1967-ci ildən dövri mətbuatda şeirləri ilə müntəzəm çıxış edir. Rus, Ukrayna, Litva və Latviya ədəbiyyatından tərcümələri vardır. Şeirləri rus, ukrayna, belarus və s. dillərə tərcümə olunmuşdur. 1980-cı ildə "Sovet Azərbaycanı maarifi — 60" mahnı müsabiqəsində mükafata layiq görülmüşdür. "Əkil-bəkil" (poema) kitabı "Ən yaxşı uşaq kitabı" I respublika müsabiqəsində ikinci mükafata layiq görülmüşdür (1989). Aldığı mükafatı şəhidlərin xatirəsinə ucaldılacaq abidə fonduna köçürmüşdür. "Cin" nağıl povesti Bakıda ingilis dilində (Vaqif Qəmbərovun tərcüməsində) kütləvi tirajla nəşr olunmuşdur. Mərhum yazıçı Ələviyə Babayeva da vaxtilə Q.İsabəylinin "Gənclik" nəşriyyatına təqdim etdiyi əlyazmasından təsirləndiyini belə ifadə etmişdir: "Q.İsabəylinin nəsr təhkiyə üslubu şeir dili kimi poetik və nağıl məziyyətlidir". Və ya: "Q.İsabəylinin "Üüü..." povestinin adı kimi özü də uşaq nəsri üçün tapıntıdır.". ("İstedad özü öz yolunu tapır". "Ədəbiyyat qəzeti", 10 yanvar 1997).

# Dahi şəxsiyyətlərin Qəşəm İsabəyli haqqında söylədikləri fikirlər

Qəşəm İsabəylinin "Əkil-Bəkil" poeması bütövlükdə kiçikyaşlı məktəblilərin bədii marağını dinamik şəkildə inkişaf etdirən, onların vətənpərvərlik tərbiyəsinə qüvvətli təsir göstərən dəyərli əsərdir. Xoşbəxt gələcəyimiz olan balalarımız üçün bu qəbildən yazılan əsərlərə geniş yer verilməsi ümumtərbiyənin, estetik mədəniyyətin yüksəldilməsi işinə ancaq fayda verər.

**Vidadi Xəlilov**
*Akademik*

"Mən "Nənəm təkdi" kitabını son illərdə yaradılmış ən gözəl əsərlərdən biri, bəlkə də elə birincisi hesab edirəm. Bu gözəl əsəri böyük Şəhriyarın "Heydərbabaya salam" əsəri səviyyəsində görürəm".

**Məmməd Namaz**
*Şair*

Qəşəm İsabəylinin "Nənəm təkdi" kitabını oxuyanda çox qəribsədim. Şirvanın ağacı-yulğun kolları, otu-qarağan, quşotu, yovşan olan şoran düzləri üçün burnumun ucu göynəyirdi.

**Əjdər Ol**
*Şair*

Uşaq psixologiyasına dərindən bələd olan, onların nəbzini tutmağa çalışan, həyatda görüb duyduqlarını ustalıqla, kövrəkliklə qələmə alan şairlər sırasında Qəşəm İsabəylinin adını ümidlə çəkmək olar.

**Qədir Aslanov**
*Redaktor*

Qəşəm İsabəylinin nəsr təhkiyə üslubu şeir dili kimi poetik və nağıl məziyyətlidir. Və ya: Q.İsabəylinin "Üüü..." povestinin adı kimi özü də uşaq nəsri üçün tapıntıdır.

**Ələviyə Babayeva**
*Yazıçı*

Sayın Qəşəm bəy! Sizin "Nənəm təkdi" adlı nəfis kitabınızı oxudum və çox sevdim. Azərbaycan babaları və nənələri bu kitabı oxuduqları üçün çox xoşbəxtdirlər.

**Nuri Qorxmaz Əfəndi**

*Nasir*

## Şeir müsabiqəsi

Kitabxananın oxu zalında Qəşəm İsabəylinin 75 illik yubileyi ilə əlaqədar şeir müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqədə kiçikyaşlılar yazarın şeirlərini səsləndirəcəklər. Ən doğru intonasiya ilə söylənilən şeir qalib sayılacaq. İndi isə sizlərə həmin şeirlərdən bir qismini təqdim edirik:

## *Qış... yay... yaz...*

Üç fəsil yaşayıram
Gündə mən.
Biri qış,
Biri yaydı,
Biri yaz -
İçində mən.

Babam -
Qar-yağışlı qış...
Atam -
Al günəşli yay...
Mən də ki, yaz -
Hay-haray.

Qış qarlayıb,
Soyuq məni vuranda,
Günəş doğur
Başım üstə o anda.

## *Çörək-bərəkət*

-Ana, hardasan? Bir dillənsənə!

Acmışam axı, çörək ver mənə.

-Gəl görüm, oğlum, bir azca otur.

Hazırdı süfrə, yeyib-içib dur.

-Yox ey, bir əlcə çörək bəsimdir.

Gözləyir Ramin, Nəsimi indi.

Geciksəm, gedib oynayacaqlar.

Məni oyuna qoymayacaqlar.

-Oğlum, süfrədə yeyilsin gərək.

Ayaq üstədə yeyilməz çörək

Ən böyük nemət çörəkdir, oğlum

Çörəyə hörmət gərəkdir oğlum.

***Sərçələr***

Yazda, yayda, payızda
Yeyər-içər, dirçələr,
Olar qəlbi sevincək.
Oxuyar hey cik-cik-cik
Boz köynəkli sərçələr.
Qışda dönər yumağa,
Qısılar bir budağa
Boz köynəkli sərçələr.

***Ərköyün***

Baxın ona, beşincidir,

Gəl ki hamını incidir.

Deyir:- Ana, su tök gülə,

Köynəyimi tap, ütülə.

Tez ol, nənə, süz çayımı,

Yır-yığış et çarpayımı.

Ayaqqabım hanı, deyin?!

Gəzin, tapın, təmizləyin!

Çöl-bayırı, qar bürüyüb

Alın beli, cəld kürüyün!

Çantamı kim götürəcək,

Məktəbə kim ötürəcək?!

Baxın ona, beşincidir,

Gəl ki hamını incidir.

***Üç kişiyik biz***

Babam təkdi,

Atam təkdi,

Təkəm mən;

Tək Allahdı,

Tək Dünyadı,

Tək – Vətən.

Babam deyir,

“3” özü tək

Rəqəmdi;

Bizim “3”-ün

Fərqi odur ki,

Cəmdi.

***Balaca, bapbalaca***

Balaca bir toxumdum;

Balaca, bapbalaca.

Nəm torpağa toxundum;

Balaca, bapbalaca.

Gün çıxdı, yer isindi;

Balaca, bapbalaca.

Bir az da yerə sindim;

Balaca, bapbalaca.

Yerdən, Günəşdən yedim;

Balaca, bapbalaca.

Bir səhər də göyərdim;

Balaca, bapbalaca.

Torpağa kök salmışam;

Balaca, bapbalaca.

Lap göyə ucalmışam;

Balaca, bapbalaca.

***Yuxu***

-Ay yuxu,  neyləyirdin

-Ovlayıb-quşlayırdım.

Balaca dostlarıma

Yuxu bağışlayırdım.

***Günəş***

-Niyə çıxırsan, Günəş?

-Oynayasan-güləsən.

-Niyə batırsan onda?

-Sən yatıb dincələsən!

***Nənəm gəlib***

A çil xoruz, bəsdi day,

Bəsdi saldın hay-haray.

Sən də bil, ey gəlsənə,

Nənəm gəlib Xəlsədən.

Anam yer salıb, yatır,

Yaman yorulub arvad.

Məni də çağırdı:-Gəl,

Oğlum, gəl qucumda yat!

Nənəm yatır yatanda,

Oturmuşam mən ancaq.

Öpürəm üz-gözündən,

Görən haçan duracaq?!

## Kitab sərgisi

Kitabxananın böyük oxu zalında Qəşəm İsabəylinin kitablarının nümayişinin keçirilməsi məqsədəuyğundur. Sərgidə metodist kiçikyaşlılara kitablar haqqında məlumat verir.







Qəşəm İsabəyli
NƏNƏM TƏKDİ
Nənəm təkdi Xəlsədə,
Üççə göz otaqda tək,
Qapısında təndiri,
Süfrəsində duz-çörək.
Deyir:-Allah oxşadıb
Özünə son çağımda;
O da təkdi, mən də tək
Dünyanın qucağında!


QƏŞƏM İSABƏYLİ
AY KÜLƏK, NƏ ƏSİRSƏN


Qəşəm İsabəyli
ELNUR, ƏKİL VƏ ONLARIN BAŞINA GƏLƏNLƏR


Qəşəm İsabəyli
SAMUR AT MİNİR


Qəşəm İsabəyli
Bir Qarıyla
Bir Qoca
Dingilim-fıs
Oynar gecə


Şah və qarışqa













https://drive.google.com/file/d/1EMWfUHBBHqKSJs-qJH8q3t3XGWg0E1gc/view

https://drive.google.com/file/d/1LcTar7hLlpnHIz3mlLD-x232YfcHLp9s/view

https://drive.google.com/file/d/14ewfuXFATgDosYrO0uJpq5B8wRSccJ3i/view

https://drive.google.com/file/d/115MSoHXaAKEm5cjiSn-2ZolSYQ9R5526/view

https://drive.google.com/file/d/1h4G-q_lBYGTk3I9UBe_A3cvVxs3g_XHw/view

https://drive.google.com/file/d/1YdM_iKSnvTXMs7EfNydj0-HSNeSUFLgW/view

https://drive.google.com/file/d/1Cxb2auQs5UhbbH0n8o6TxtxPD2VP0ICo/view

https://drive.google.com/file/d/1X5tpSggIgMj0PcAMx29Z_Jqop4qs3ndW/view

https://drive.google.com/file/d/1zmT5E_rl01fCsWE2HHnq6DlmwXwSftd5/view

https://drive.google.com/file/d/1jz0o9QnbMAWpXQUu-iIoR-xYFJmDzhvG/view

https://drive.google.com/file/d/1-xJOsJsOOodY9SRR0A55iNeMcqJfXpG5/view

Kitabxanada Q.İsabəylinin yubileyi ilə əlaqədar keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir.

Kitab müzakirəsində Q.İsabəylinin uşaqlar arasında ən çox sevilən kitabı **“Aclıq dərsi”** 2014-cü ildə Şirvannəşrdə işıq üzü görmüşdür. Kitab eyni ildə V.Qəmbərov tərəfindən ingilis dilinə tərcümə edilmişdir. Əsərin əsas qəhramanı Elatın 10 yaşı var. O, Xocalı qırğınından canını qurtarıb ailəsi ilə birgə Bakının gecəqondularının birində yaşayırdı. Dərsdə müəllimin verdiyi “aclıq nədir”? sualı barəsində Elatın cavabı şagirdlər tərəfindən təəccüblə qarşılanır.

https://clb.az/elektron/Sevimli_kitablarimiz/kitab/Qesem%20Isabeyli-Acliq%20dersi.pdf

Şair "**Nənəm təkdi**" poemasını orijinal üslubda qələmə almışdır. Balaca oxuculara "Salam" verən şair uşaqların onun kitabını oxumağına sevinir, onlardan ötrü darıxdığını dilə gətirir:

Xoş gördük, ay Məhsəti,

Ay Anar, ay Yasəmən!

Balam, sizdən ötəri

Yaman darıxmışam mən.

Poema kənddə tənha yaşayan nənənin həyatına həsr olunub. Nənə tək yaşasa da, fikri-zikri doğma uşaqlarının yanındadır.

Poema bir neçə bölmədən ibarətdir: "Nənəm deyir...", "Nənəm çörək göndərib", "Nənəm atıb evini", "Nənəm obaşdan durub", "Nənəm yır-yığış etdi", "Nənəmgilə gəlmişəm", "Nənəm mət hazırlayıb", "Nənəm məktub yollayıb", "Nənəm satıb evini". Hər bir bölmədə nənənin keçirdiyi iztirabları, hiss və duyğuları, zəmanəyə, dünyaya baxışı və bunların yeni nəslin tərbiyəsində, bir şəxsiyyət kimi formalaşmasında rolunu görməmək mümkün deyil.

## Nağıl saatı

Kitabxananın nağıl otağında kitabxanaçı məktəblilərə Qəşəm İsabəylinin "Üç xoruzla bir toyuq" nağılını söyləyir. Sonda kiçikyaşlıların onu diqqətlə dinlədiyindən əmin olmaq üçün nağıl ətrafında sual-cavab edir. Suallara tez, düzgün cavab verən oxucu qalib sayılacaq. Rəhbərlik tərəfindən maraqlı nağıl kitabları ilə mükafatlandırılacaq.

Həyətin ağac-uğacı vardı, kol-kosu vardı, ot-pəncəri vardı. Ağac–uğaca quşlar düşürdü, kol–kosa kəpənəklər qonurdu, ot-pəncər də üç xoruzla bir toyuğun idi.

Xoruzların üçü də al qırmızı rəngdə idi. Toyuğun tüklərinin rəngi ağ, gözlərinin rəngi qara idi. Hələ başqa-başqa fərqləri də vardı toyuqla xoruzların.

Xoruzlar dən yeməyi bilirdi, su içməyi bilirdi, eşənək atmağı bilirdi... Bir də kefləri duranda qanadlarını şappıldadıb, banlamağı. Bu banlamağın da özlərindən başqa heç kimə faydası olmazdı; hirsləri, acıqları çıxırdı canlarından. Yoxsa bir-birini didib-dağıdıb ,qızıl qana bulayardılar.

Gəl ki, yumurtlayan da toyuq olardı, kürt düşən də toyuq olardı, bala çıxaran da.

Bütün ili doğub-yağmaqla ömrünü üzən toyuq, yaz yetişən kimi, bir topa yumurtanı altına basıb, nə az, nə çox, düz 21 gün köksü üstə düşüb qalardı; Ağzı dinib-danışmaqdan, qarnı yemək-içməkdən olar, səsi kallaşar, deyingən arvadlar kimi hirsə-hikkəyə dolardı. Beş gündən bir, bir həftədən bir çığıra–çığıra atılıb yerindən qalxar, cumub bir qurtum su içər, bir dimdik dən götürər, yenidən qayıdıb yıxılardı yumurtaların üstünə.

Elə bilirsiz ana olmaq asandı! Dünyaya bir övlad gətirincə kirpikləriylə od götürür analar. Vay odur ki, min bir əzabla dünyaya gələn övlad özü öz qədrini bilməyə!

Günlər ötər, bir görərdin toyuğun kal səsinə nazik, cingiltili səslər qarışıb. Baxardın ki, ağ-appaq tüklərin yan-yörəsində sap-sarı, qap-qara, bom-boz, balaca başlar oynaşır. Toyuq da

həmin gündən hörmətə minərdi; adının baş həfi böyüyər, qabağına da soyadı düşərdi; - “Anac Toyuq”.

**Kitabxanaçı:** Uşaqlar, nağılımız yekunlaşdı. İndi isə sizlərə suallar verəcəm. O zaman nağılı kimin daha diqqətli dinlədiyini anlayacağıq.

1. Həyətdə neçə xoruz neçə toyuq var?

Cavab: 3 xoruz 1 toyuq

2. Xoruzlar hansı rəngdə idi?

Cavab: Al qırmızı rəngdə

3. Xoruzlar nəyi bacarırdı?

Cavab: Dən yeməyi, su içməyi, eşənək atmağı, banlamağı.

4. Toyuqlar hansı rəngdə idi?

Cavab: Toyuğun tüklərinin rəngi ağ, gözlərinin rəngi qara idi.

5. Toyuqlar nə iş görərdi?

Cavab: Yumurtlayırdı, kürt düşürdü, bala çıxarırdı.

6.Yumurtlayan xoruz idi yoxsa toyuq?

Cavab: Toyuq

7. Nə zaman toyuqlar “Anac toyuq” adlanırdı?

Cavab: Bala çıxarandan sonra

8. Toyuqlar neçə gün yumurta üzərində qalardı?

Cavab: 21 gün

# Rəsm müsabiqəsi

Qəşəm İsabəylinin yubileyi münasibəti ilə kitabxananın nağıl otağında rəsm müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqənin əsas şərti şairin "Leyləyin intiqamı" kitabındakı şeirlərə uyğun rəsmlərin çəkilməsidir. Şəkil hansı şeirə aiddirsə həmin məktəbli öncə şəkli təqdim edib, sonra isə şeirdən bir bənd söyləyir.



Bulu-bulu-bulud-bulud,

Qaç!..

Qaçıram, məni tut!

Uşaqtək ona allandım,

Qovdum, ətəyi sallandı.



Çör, çö-rək,çö-ö-rək, çö-y-rək

Bəlkə "çöyür, ək" di bu?!

Çöyür, yəni sür yeri,

Sür yeri, çöyür yeri.

Gün yuvalandı, durma,

Yer havalandı, durma.



Ay qış, nə tez gedirsən,

Yağdırmadın qar bizə?

Bəs nə gətirəcəkdir

Gələndə bahar bizə?




Burda nə çox quş var, oyy,

Qulaq batır ki, səsdən.

Bülbül, sərçə, sığırçın-

Hamısıda qəfəsdə.



-Niyə çıxırsan, Günəş?

-Oynayasan-güləsən.

-Niyə batırsan onda?

-Sən yatıb dincələsən!

## Səhnəcik

Kitabxananın oxu zalında kiçikyaşlılar Qəşəm İsabəylinin müəllifi olduğu "Hörümçək və Dəvənin" nağılını səhnələşdirirlər. İndi isə sizlərə həmin səhnəciyi təqdim edirik.
Aparıcı: Dəvə ağacın altından keçəndə ayağı bir-birinə dolaşdı, dizi qatlanıb, çənəsi üstə yerə gəldi:
Dəvə: Höh!..
Aparıcı: Dəvə başını qaldıranda gördü budağın ucunda bir Hörümçək oturub. Hirslə soruşdu:

Dəvə: Sən idin gülən?!

Hörümçək: Xeyr!

Dəvə: Bəs kim idi?

Hörümçək: Ağac!

Dəvə: Məni dolamısan?!

Hörümçək: Ay löh-löh, görmürsən məndən başqa kimsə yoxdu burda?!

Dəvə: Yekə-yekə danışma!

Aparıcı: Hörümçək bir az da bərkdən güldü.

Dəvə: Demədim, nəyə gülürsən?!

Hörümçək: Sənə!

Aparıcı: Dəvə çaşıb qaldı:

Dəvə: Mənəəəə?!

Hörümçək: Bəli!

Dəvə: Buynuzum çıxıb?!

Hörümçək: Buynuzun çıxsaydı ondan yaxşı olardı!

Dəvə: Niyə?!

Hörümçək: Bu boyda cəmdək guppadan çənəsi üstə yerə dəyib, hələ bir sual da verir!

Dəvə: Mən yerdən yerə yıxılmışam, inşallah, sən də təpəsi üstə göydən yerə gələrsən!

Hörümçək: Gəlmərəm!

Dəvə: Belə qoçaqsan?!

Hörümçək: Məni yıxan hələ anasından olmayıb!

Dəvə: Guya məni yıxıblar!

Hörümçək: Əlbəttə, yıxıblar!

Dəvə: Kim yıxıb?!

Aparıcı:  Hörümçək sağ əlini qoydu sinəsinə:

Hörümçək: Mən!

Dəvə: Səəən?!

Hörümçək: Bəəəli!

Dəvə: He... he... he...

Aparıcı: Bu dəfə də Dəvə güldü.

Hörümçək: Sən niyə gülürsən, löh-löh?!

Dəvə: Özündən soruş!

Hörümçək: Özümdən?! Özüm bilsəydim, səndən niyə soruşurdum?!

Dəvə: Gülməli danışma, gülməyim!

Hörümçək: İnanmırsan səni yıxdığıma?!

Dəvə:  Açıl başımdan!

Aparıcı: Hörümçək bərk hirsləndi:

Hörümçək:  Löh-löh!

Dəvə:  Qırılda, görüm, nə qırıldayırsan!

Hörümçək: Yadına gəlir hürgüclərin titrəyə-titrəyə bu ağacın altından keçirdin ha...
Aparıcı: Hörümçək dayandı.

Dəvə: Sən deyən olsun!

Hörümçək: İki günə toxuyub havadan asdığım torumu burnuna dolayıb, götürüb apardığın necə?!

Dəvə: Sən deyən olsun!

Hörümçək: O günü məni ac qoydun!

Dəvə: Niyə?!

Hörümçək: Bir dənə də milçək tuta bilmədim!

Dəvə: Biz insan deyilik ki, hər gün yeyək.

Hörümçək: Ay löh-löh, Allah səni elə yaradıb ki, bir ay yeməsən, ölməzsən! Amma mən... üç gün ac qalsam, ölə bilərəm.

Dəvə: Qorxma, sənin ölməyinlə dünya dağılmaz...

Hörümçək: O günü özümə söz verdim, gərək elə bir tor toxuyum, səni yıxım, hirsim soyusun.

Dəvə: Təşəkkür edirəm!

Hörümçək: Nəyə təşəkkür eləyirsən?!

Dəvə:  Nənəm öləndən bəri nağıl eşitməmişdim.

Hörümçək: Sənin sözündən belə çıxır ki, mən nağıl danışıram?!

Dəvə:  Ay yazıq, sənin torun küləkdən sökülür! Onda o güc hardandı ayağıma dolaşıb, məni yıxa?!

Hörümçək:  İnanmırsan?!

Dəvə:  He... he... heee...

Aparıcı: Dəvə güldü.

Hörümçək: Gülməyi nənəm də bilir, ay löh-löh! Hünərin var, dur ayağa, görüm, necə durursan?!

Aparıcı: Dəvə hirslə dartındı - əllərini yerə verdi ki, qalxsın, tappadan böyrü üstə aşdı.

Dəvə:  Höh!..

Hörümçək:  Nədi, höhüldəyirsən, löh-löh?!

Aparıcı: Dəvə zarıdı:

Dəvə:  Hörümçə-ə-ək?!

Hörümçək: Eşidirəm!

Dəvə:  Bu toru sən toxumusan?

Hörümçək:  Kim toxuyacaqmış?!

Dəvə:  Nəylə toxumusan bunu?

Hörümçək:  Hirsimlə!
https://www.youtube.com/watch?v=ikfXaqfHs4k

## Sərgi ətrafında oxucularla ilə söhbət




"Nənəm Təkdi" kitabı 2008-ci ildə Şirvannəşrdə işıq üzü görmüşdür. Şair kitabı 1994-cü ildə maşın qəzasında həyatını itirmiş qardaşı və əmisi nəvəsinə ithaf etmişdir. Kitabda Nənəm təkdi, Nənəm deyir, Nənəm çörək göndərib, Nənəm obaşdan durub, Nənəm yır-yığış etdi, Nənəm məktub yollayıb, Nənəm satıb evini və sonda Xudhafiz şeirləri yer alır.

Xeyli zəhmət çəkmisən,

Almısan "Nənə"ni sən.

Qardaş canı, sevincək

Eyləmisən məni sən!




“Elnur, Əkil və Onların Başına Gələnlər” kitabı 2011-ci ildə Şirvannəşrdə çap olunmuşdur. Kitab məktəbli uşaqlar üçün sinifdənxaric oxu kimi nəzərdə tutulmuşdur. Kitabda ibrətamiz, məzəli və əxlaqi keyfiyyətlərlə zəngin hekayələr mövcuddur. Əkil yumurta şahlığında, Nənə, məni bağışla, Quş necə əkil oldu?, Çörək niyə dadlıdı?, Necə oldu ki, “A” dönüb “Ana” oldu, Əkil itmiş adını necə tapdı, Nə oldu ki, Əkil dönüb arı oldu hekayələri kitabda yer alır.




Kitab 2014-cü ildə Şirvannəşrdə çap olunmuşdur. Kitab V.Qəmbərov tərəfindən ingilis dilinə çap olunmuşdur. “Aclıq dərsi” kitabının əsas qəhramanı Elatın 10 yaşı var. O, Xocalı qırğınından canını qurtarıb ailəsi ilə birgə Bakının gecəqondularının birində yaşayırdı. Dərsdə müəllimin verdiyi “aclıq nədir”? sualı barəsində Elatın cavabı şagirdlər tərəfindən təəccüblə qarşılanır.




Q.İsabəylinin müəllifi olduğu "Cin" kitabı 2013-cü ildə Şirvannəşrdə işıq üzü görmüşdür. Folklor motivləri əsasında qələmə alınmış bu nağıl-povest kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur. Kitabda "Bismillah", "İt, pişik və kişi", "Mır mır mır", "Cinlər padşahı", "Bizə yol ver", "Mən burda acam" nağılları mövcuddur.




"Ay Külək, Nə Əsirsən" kitabı 2002-ci ildə Şirvannəşrdə çap olunmuşdur. Kitab 52 səhifədən ibarətdir. Kitabda bir birindən maraqlı şeirlər verilmişdir. Külək, Bərəkət, Çörək Əriştə, Eldar, Nərmin, Şəhərli oğlan, Nənəyə məktub, Qonaq, Anam, Qızıl İnək və s. şeirlər daxildir.

Ay külək, nə əsirsən,
Əsməsəm, olmaram mən.
Olmağının xeyri var,
Xeyri var ki, varam mən!

"Leyləyin intiqamı" kitabındakı şeirlərin hər birinin mövzusu Azərbaycan coğrafiyası, Azərbaycan təbiətidi. "Leyləyin intiqamı" kitabındakı şeirləri istənilən dilə çevirib istənilən ölkədə yaymaq, oxumaq nə tərcüməçiyə, nə də naşirə problem ola bilməz. Çünki burdakı uşaq dünyası hər kəsə doğmadı. "Leyləyin intiqamı" 2015-ci ildə Şirvannəşrdə işıq üzü görmüşdür. Kitabda son illərdə qələmə aldığı şeirləri, hekayələri və nağılları toplanmışdır. Kitabda Vətən, Vətən-yəni biz.., Çörək, Üç, Mübarək, Ay qış, Ay qar, Yalan, Qarınqulu və s. şeirləri daxildir. Şeirlər ilə yanaşı kitabda hekayələrə də yer ayrılmışdır. Bulud, Toxluq, Leyləyin İntiqamı, Aclıq dərsi, Toxluq, Bağban, Alça, Sərçə və s. aiddir. Nağıllara isə Ağıllı mismar, İt və Eşşək, Şeytan, Tülkü ilə atışma, Fal, Əsir Bülbül və Kasıb Qarı daxildir. Kitab yuxarıyaş məktəblilər üçün nəzərdə tutulmuşdur.

## Ədəbi-bədii gecə

Kitabxananın oxu zalında Q.İsabəylinin 75 illik yubileyi münasibəti ilə ədəbi-bədii gecə keçirmək məqsədəuyğundur. Ədəbi-bədii gecədə kitabxana rəhbərliyi, Q.İsabəyli, yazarın kiçik yaşlı oxucuları iştirak edir. Tədbirdə kitabxana rəhbəri sənətkarın həyat və yaradıcılığı barədə danışmaq üçün sözü şair Qəşəm İsabəyliyə verir. Şair əsərləri haqqında ümumi məlumat verir. Oxucularına ən çox hansı əsərlərini sevdiklərini bilmək üçün sual-cavab edərək, biri-birindən maraqlı cavablar alır.

1.Q.İsabəylinin ilk kitabı hansıdır?
**Cavab:** Bap-balaca

2. Q.İsabəylinin hansı kitabı iki dildə nəşr olunmuşdur?
**Cavab:** Aclıq dərsi

3. Şairin hansı şeirlərinin adlarını sadalaya bilərsiz?
**Cavab:** Sərçələr, Yuxu, Ərköyün, Günəş və s.

4. Yazarın ən çox sevdiyiniz kitabı hansıdır?
**Cavab: "**Leyləyin İntiqamı", "Cin", "Ay Külək, Nə Əsirsən"

5.Şairin şeirlərindən hansını söyləyə bilərsiz?
**Cavab:-**

6. "Leyləyin İntiqamı" kitabında hansı hekayələr var?
**Cavab:** Bulud, Toxluq, Leyləyin İntiqamı, Aclıq dərsi, Bağban, Alça, Sərçə və s.

7. Kim deyə bilər "Aclıq dərsi" kitabı nədən bəhs edir?
**Cavab:-** Xocalı qırğınından canını qurtarıb ailəsi ilə birgə Bakının gecəqondularının birində yaşayan ailədən.

8. Q.İsabəylinin "Cin" kitabı hansı nəşriyyatda çap olunmuşdur?
**Cavab:** Şirvannəşrdə

9. "Nənəm təkdi" kitabını şair kimə ithaf etmişdir?
**Cavab:** Qardaşı və əmisi nəvəsinə

10. Q.İsabəylinin "Ay Külək, Nə Əsirsən" kitabından hansı şeirləri söyləyə bilərsiz?

Ay külək, nə əsirsən,
Əsməsəm, olmaram mən.
Olmağının xeyri var,
Xeyri var ki, varam mən!

Daha sonra aparıcılar səhnəyə gələrək Qəşəm İsabəylinin "Bulud" hekayəsi əsasında hazırladıqları səhnəciyi təqdim edirlər:

**Aparıcı:** Külək qalxmagıyla əllərini dörd eləyib, dənizi yolub-yoluşdurmağa başladı. Dəniz sakit olmağa çalışdı... bacarmadı; bir də gördü, nəfəsi buğ verir. Buğ qalxdı-qalxdı, düz dənizin başı üzərində bom-boz ayı balasına döndü. Onu da külək qabağına alıb apardı. Bulud birdə gözünü açanda, ucsuz-bucaqsız torpaq üstü ilə süründüyünü gördü.

**Bulud:** Ah... Səhra imiş ki! Nə suyu, nə otu, nə quşu, nə böcəyi... Bu yazıq tək-tənha neyləyir görəsən?! Bəlkə...

**Aparıcı:** Qara Bulud axşamacan süründü:

**Bulud:** Dəniz məni yormadı, Səhra yorub artıq; gözlərim qaranlıq gətirir.Bir gündə getsəm, kor olub qalacam! Bəlkə... yağım?! Niyə "Bəlkə"?!

**Aparıcı:** Qara Bulud kirpiklərini bir-birinə sıxdı.-Şırr.. şırrr...

**Bulud:** Nə yaman yüngülləşdim! Bir az da...

**Aparıcı:** Saniyələr ötdü, dəqiqələr ötdü, saatlar... Bulud bir də gördü... arxası yerə dirənib, gözləri Göyə baxır:

**Bulud:** Bıy! Dönüb Göl olmuşam ki! Təklikdən ürəyim partlamasa yaxşıdı! Heç olmasa Göydə sürünürdüm, Yerə baxırdım. İndi isə...

**Aparıcı:** Qəfil qulağına dəyən səsdənləngər vurdu.

**Bulud:** Kimsən?

**Qurbağa:** Kim olacam, mən?!

**Bulud:** Sən kimsən?!

**Qurbağa:** Qur...qur!

**Bulud:** Qur...qur... Qurbağa?!

**Qurbağa:** Özüdür ki, var!

**Bulud:** Nə yaxşı

**Qurbağa:** Darıxırdın axı!

**Bulud:** Çox sağol, ay Qurbağa!

**Qurbağa:** Balıq da mənimlə gəlib!

**Bulud:** Sağ olsun! Darıxmıram day!

**Aparıcı:** Göldə yorulmuşdu. Haçan yatdığını özüdə bilmədi. Bir də səhər yeli əllərini üzünə çəkəndə Qurbağanın səsi qulaqlarına doldu:

**Qurbağa:** Qur...qur!

**Aparıcı:** Baxdı ki, şappa-şap sinəsinə quşlar düşür, hərdən dilini uzadıb yaladığı sahilləri yaşıla dönür, ətrafına arılar, böcəklər basır.

**Göl:** Eheyyy! Hara gedirsiz?! Yanıma gəlin! Eheyyy! Xoşbəxt olmaq istəmirsiz?!

Ümumiyyətlə, Qəşəm İsabəyli yaradıcılığı haqqında əminliklə deyə bilərik ki, şairin müraciət etdiyi hər bir mövzu gələcəyimiz olan uşaqların mənəviyyatca sağlam, yetkin şəkildə yetişməsinə, onların bir şəxsiyyət kimi formalaşmasına xidmət edir.

Eyni zamanda Qəşəm İsabəyli uşaqların istər zehni inkişafına təsir edən, istərsə də nitqinin təkmilləşməsinə xidmət edən bir-birindən maraqlı ədəbi nümunələr ortaya qoymağa nail olur. Bu da müasir dövrümüzdə uşaq ədəbiyyatı sahəsində daim ardıcıl fəaliyyət göstərən şairin öz yaradıcılıq dəst-xəttinə də sadiqliyini deməyə əsas verir.

Ədəbi-bədii gecənin sonunda Q.İsabəylinin həyat və yaradıcılığından bəhs edən slayd iştirakçılara təqdim olunur.

https://www.youtube.com/watch?v=dxoVt8g1N2E

https://www.youtube.com/watch?v=OHg7EkkiiCI

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitabları**

“Aclıq” dərsi = The lesson of hunger. - Bakı : Şirvannəşr, 2014. - 8 s.

Avropa dəbi...Dar şalvarlar və qızlarımızın monqol ayaqları. - Bakı : Şirvannəşr, 2007. - 44 s.

Ay külək, nə əsirsən : şeirlər. - Bakı : Şirvannəşr, 2004. - 52 s.

Bir qarıyla bir qoca dingilim-fis oynar gecə : hekayələr. - Bakı : Şirvannəşr, 2006. - 40 s.

Bir qəlbin məhəbbət etirafları : hekayət. - Bakı : Şirvannəşr, 2006. - 52 s.

Boz cücələrlə məşhur oğrubaşı qara pişiyin ölüm-dirim savaşı : nağıl. - Bakı : Şirvannəşr, 2015. - 32 s.

Bu şəhər mənə göz dağı olub. - Bakı : Şirvannəşr, 2011. - 198 s.

Cin : nağıl-povest. - Bakı : Şirvannəşr, 2013. - 64 s.

Cin : nağıl-povest. - Bakı : Şur və Cik-Cik, 1993. - 32 s.

Elnur, Əkil və onların başına gələnlər : nağıl. - Bakı : Şirvannəşr, 2004. - 52 s.

Elnur, Əkil və onların başına gələnlər : nağıl. - Bakı : Şirvannəşr, 2011. - 76 s.

Əlifba-krossvord : poeziya. - Bakı : Şirvannəşr, 1999. - 16 s.

Əlli yaşında : toplu. - Bakı : Şirvannəşr, 1998. - 31 s.

Göydən üç alma düşdü : nağıl. - Bakı : Şirvannəşr, 1999. - 16 s.

İii...aaa... : nağıl. - Bakı : Şirvannəşr, 2014. - 56 s.

Leyləyin intiqamı : Şeirlər, hekayələr, nağıllar. - Bakı : Şirvannəşr, 2015. - 128 s.

Nağıl-nağıl məkanı : nağıl. - Bakı : Şirvannəşr, 2000. - 16 s.

Nənəm təkdi : poema. - Bakı : Cik-Cik, 1995. - 48 s.

Nənəm təkdi : şeirlər. - Bakı : Şirvannəşr, 2008. - 84 s.

Ölü bilər, mən bilərəm... : satirik hekayələr. - Bakı : Şirvannəşr, 2007. - 232 s.

Özü bilər, mən bilərəm... : satirik hekayələr. - Bakı : Şirvannəşr, 2008. - 232 s.

Samur at minir : yumor. - Bakı : Şirvannəşr, 2006. - 40 s.

Şamaxı-Şam nağılı : poema. - Bakı : Şərq-Qərb, 1996. - 16 s.

Üüü... : nağıl. - Bakı : Şirvannəşr, 2000. - 64 s.

**Əsərləri dövrü mətbuatda**

"Aclıq" dərsi : hekayə // Savalan. - 2014. - 25 -27 fevral. - № 14. - S. 8.

"Aclıq" dərsi : Xocalı hekayələri silsiləsindən // Kaspi. - 2014. -15- 17 fevral. - № 27. - S. 20.

"Səksən külliyatdır...filmin sonudur" : Qabil // Xalq qəzeti. - 2007. - 8 may. - S.6.

3-ə bölünməyən 40 ; Beş hərfin faciəsi : hekayələr // Ədəbiyyat qəzeti. - 2018. - 17 mart. - № 10. - S. 7.

Aauuu ; Ayı və ovçular ; Şəm-Şəmlə Nökərin əhvalatı : hekayələr // Ədəbiyyat qəzeti. - 2017. - 30 dekabr. - № 52. - S. 11.

Aclıq dərsi : hekayə // Savalan. - 2023. - 24-30 yanvar. - № 3. - S. 8.

Ağac : hekayə // Göyərçin. - 2017. - № 5/6. - S. 7.

Allah və insan // Ədəbiyyat qəzeti. - 2019. - 19 yanvar. - № 2. - S. 23.

Alma : hekayə // İşıq. - 2017. - № 1. - S. 59-61.

Alma ; Dəniz və tufan ; Qoca və balaca : nağıllar // Ədəbiyyat qəzeti. - 2017. - 4 mart. - № 8. - S. 11.

Axır ki, öldüm, ay bala // Ədəbiyyat qəzeti. - 2018. - 17 noyabr. - № 43. - S. 29.

Ay külək nə əsirsən? ; Samir at minir : şeirlər // Ədəbiyyat qəzeti. - 2008. - 22 avqust. - S. 4.

Ay külək, nə əsirsən? və ya "Siz ey Yunanıstanın başı qarlı dağları : şeirlərin təhlili // Naşir. - 2015. - № 2. - S. 78-80.

Ay nənəli ; Ot çalır atam ; Payız gəlib kəndimiziə və b. şeirlər // Kaspi. - 2014. - 31 may. - № 93. - S. 19.

Bala sərçə ; Külək ; Küsə-küs və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 7.

Beş dost ; Görünməz və Alabəzək Kos ; Dəvəylə hörümçək : bir hekayə, iki nağıl // Ədəbiyyat qəzeti. - 2020. - 5 iyun. - № 16. - S. 13.

Beş hərfin faciəsi : hekayə // Kaspi. - 2014. - 30 avqust. - № 138. - S. 13.

Bir həftə Məşhəddə : Yazıçı-publisist Qəşəm İsabəyli ilə söhbət/ yazdı Mehparə // Mədəniyyət. - 2009. - 23 dekabr. - N 89. - S. 12.

Bulud : hekayə // Ədəbiyyat qəzeti. - 2014. - 10 oktyabr. - № 39. - S. 14.

Bulud : hekayə // Savalan. - 2014. - 10-13 oktyabr. - № 76. - S. 8.

Dəniz və tufan : hekayə // Göyərçin. - 2018. - № 4. - S. 6-7.

Dərs ; Vətən ; Üç ; Mübarək ; Nənəm və b. şeirlər // Göyərçin. - 2018. - № 9. - S. 6-7.

Dəyərli əsərlər müəllifi : Qılman İlkin - 100 // Mədəni Həyat . - 2014. - № 10. - S. 14-16.

Ədəbi imzalar bolluğunda ədəbi sima, İlyas Tapdıq : İlyas Tapdıq - 80 // Kaspi. - 2014. - 27
sentyabr. - № 158. - S. 19-20.

Ey Türkün övladları ; Şir kimi vuruşuram ; Biz vətəndaş deyilik və b. : şeirlər // Göyərçin. - 2021. - № 4. - S. 8-9.

Göz yaşları : hekayə // Ədəbiyyat qəzeti. - 2022. - 1 oktyabr. - № 38. - S. 24.

İlyas Tapdıq - ədəbi imzalar bolluğunda ədəbi sima // Yada düşdü. - 2017. - № Yanvar-fevral-mart. - S. 70-74.

İnşallah ; Bəstəkar Oqtay Rəcəbovun babası Əbil Məlikməmmədov ; Başımı itirmişəm və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2019. - 17 avqust. - № 28. - S. 9.

İnsan; Gorbagor; Yaşa doldum və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2020. - 8 avqust. - № 28/29. - S. 15.

Xalqına dəyərli əsərlər yadigar qoyub : Qılman İlkin - 100 // Azərbaycan. - 2014. - 12 avqust. - № 171. - S. 6.

Köçərilər : Xocalı hekayələri silsiləsindən // Kaspi. - 2014. - 22 fevral. - № 32. - S. 20.

Qaqaşım Şəm - Şəm ki, mənə "Zeynəb şirin qızdı" - deyir... : şeirlər // Ədəbiyyat qəzeti. - 2020. - 15 fevral. - № 6. - S. 23.

Qərib uşaqla qərib itin əhvalatı : uşaq hekayəsi // Ədəbiyyat qəzeti. - 2017. - 27 may. - № 19. - S. 22.

Qış... yay... yaz... ; Nəzrin və yuxu ; Qar və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2018. - 2 iyun. - № 21. - S. 9.

Qısa şeirlər ustası : Ələsgər Əlioğlu // Ədəbiyyat qəzeti. - 2021. - 13 fevral. - № 6. - S. 10.

Qoca və balaca : hekayə // Göyərçin. - 2017. - № 9. - S. 4-5.

Meh və külək : hekayə // Göyərçin. - 2017. - № 5/6. - S. 6.

Mən Bakının istisini sevirəm : Qılman İlkin - 100 // Kaspi. - 2014. - 17 may. - № 84. - S. 20.

Mismarın nağılı // Ədəbiyyat qəzeti. - 2015. - 30 yanvar. - № 6/7. - S. 26.

Nəyəsəklə Urğo Naçisin əhvalatı : hekayə // Ədəbiyyat qəzeti. - 2019. - 1 iyun. - № 19. - S. 8-9.

Nikbinlik zəngi : Şair Oqtay Rzanın xatirəsinə // Ədəbiyyat qəzeti. - 2019. - 24 avqust. - № 29. - S. 17.
Şəhid Bulud ; Görünməz və Alabəzək Kos : nağıllar // Ədəbiyyat qəzeti. - 2017. - 11 fevral. - № 5. - S. 23.

Snayperçi əsir - erməni qızı : Hisslərin ən alisi məhəbbətdir : hekayə // Ədəbiyyat qəzeti. - 2019. - 13 iyul. - № 24. - S. 24.

Son görüş : hekayə // Kaspi. - 2015. - 13 iyun. - № 235 - Ədəbiyyat (№106 - nömrəyə əlavə). - S. 20.

Sülhü neyləyirik biz ; İntiqam ; Cavabsız sual ; Şəhid uşağı : şeirlər // Ədəbiyyat qəzeti. - 2020. - 17 oktyabr. - № 46. - S. 21.

Talvarda bir gecə : hekayə // Savalan. - 2022. - 17-23 may. - № 17. - S. 3.

Təsəlli duası ; Geoloq-şair Oqtay Rza : şeirlər // Ədəbiyyat qəzeti. - 2019. - 26 oktyabr. - № 37. - S. 28.

Üç kişiyik biz ; Niyə ; Ay baba və b. şeirlər // Göyərçin. - 2011. - № 9. - S. 16.

Unudulmaz Qabil // Ədəbiyyat qəzeti. - 2008. - 15 avqust. - S. 2.

Vətən ; Qoyun, dəvə ; Nəzakət və b. şeirlər / // Azərbaycan : jurnal. - 2016. - № 12. - S. 173-174.

Vətən; Ay qış; Yumurta və b. : şeirlər // Tumurcuq. - 2013. - № 5. - S. 8.

Yarı canım ; Azərbaycan kimindir ; İt oğlu paraq və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2020. - 2 may. - № 12. - S. 17.

Yatmıram ki, gecələr... // Ədəbiyyat qəzeti. - 2018. - 22 dekabr. - № 49/50. - S. 24-25.

Yeddi çağırığa bir "hə" ... ; Alim : uşaq hekayələri // Kaspi. - 2014. - № 186.

Zahid Xəlilin "Ağ leyləklər"i // Ədəbiyyat qəzeti. - 2017. - 8 aprel. - № 12. - S. 21.

**Tərcümələri**

**Bjexva Y**. Qarışqa : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Çiardi C**. Şlyapasız adam : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Kvitko L**. Bacarıqlı oğlan ; Lemyelanın ev işləri ; Anna-Vanna ; Bembadan Drembaya : şeirlər / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 12 may. - № 18. - S. 24.

**Qreyvz R**. Balqabaq : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Qrubin F**. Ay : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Rodari C**. Poçtalyon : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Zmay Y**. Saat : şeir / tərc. Q. İsabəyli // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 29.

**Haqqında dövrü mətbuatda**

"Qızıl Kəlmə" ədəbi mükafatı təqdim edilib // Naşir. - 2015. - № 2. - S. 10.

**Akimova E**. Uşaqdan böyüyə düşündürən məqamlar, yaxud ədəbi məram dəyişmirsə :

**Əhmədova Ş**. Üslubundan tanınan şair // Kaspi. - 2018. - 20 oktyabr. - № 177. - S. 23.

**Xəlil Z**. Uşaqlığını yazan şair : Qəşəm İsabəyli haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 18 avqust. - № 31. - S. 18-19.

**Qəmbərova G**. Qəşəm İsabəylinin çağdaş dövr uşaq şeirləri təhlil kontekstində // Ədəbiyyat qəzeti. - 2021. - 17 aprel. - № 15. - S. 26.

Qəşəm **İsabəyli -** 60 // Ədəbiyyat qəzeti. - 2008. - 22 avqust. - S. 4.

Qəşəm İsabəyli **-** 70 // Ədəbiyyat qəzeti. - 2018. - 18 avqust. - № 31. - S. 18. - Azərbaycan Yazıçılar birliyi.

Qəşəm İsabəylinin poeziya və nəsr yaradıcıllığı haqqında düşüncələr // Ədəbiyyat qəzeti. - 2022. - 31 dekabr. - № 52. - S. 8.

**Nasir Ş**. Azərbaycan uşaq yazıçısının uğurları : Qəşəm İsabəyli // Savalan. - 2014. - 17-20 oktyabr. - № 78. - S. 3.

**Nasir Ş**. Azərbaycanın uşaq yazıçısı qızıl medalın bir addımlığında : Azərbaycanın uşaq yazıçısı Qəşəm İsabəyli // Azərbaycan Müəllimi. - 2014. - 17 oktyabr. - № 40. - S. 8.

**Nasir Ş**. H. X. Andersen qızıl medalının bir addımlığında : Azərbaycan uşaq yazıçısı Qəşəm İsabəylinin yaradıcılıq uğuru // Kaspi. - 2014. - 11 oktyabr. - № 166. - S. 16.

**Səmədzadə K**. Qəşəm İsabəyli tanınmış uşaq yazıçılarından biri kimi // Mədəni Həyat . - 2014. - № 3. - S. 92-95.

**Sərvaz.** Bildiklərimizin əlavəsi : Qəşəm İsabəyli - 60 // Ədəbiyyat qəzeti. - 2008. - 22 avqust. - S. 4.

**Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs gətirən yazıçı Qəşəm İsabəyli**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**